www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-08 (1812) 30 aprel 2025-ci il




## ATU-nun nümayəndə heyəti Azərbaycanlı Həkimlərin Berlin Qurultayında iştirak edib

**Rektor, professor Gəray Gəraybəyli: Məzunlarımızın Almaniyada böyük uğurlara imza atması qürurvericidir**

səh. 3

### Akademik Zərifə Əliyevanın işıqlı xatirəsi xalqımızın qəlbində yaşayır

səh. 2

### Tibb Festivalına hazırlıq məsələləri müzakirə olunub

səh. 3

### Kolumbiyalı mütəxəssis universitetimizdə mühazirələr oxuyub

səh. 4




### Böyük Elmi Şuranın növbəti iclası keçirilib

Rektor, professor Gəray Gəraybəyli: Beynəlxalq əlaqələri genişləndirmək və xarici tələbə sayını artırmaq prioritet vəzifədir

səh. 2

### Magistratura pilləsində ixtisaslaşmalarla bağlı müzakirələr aparılıb

*Yeniliklər əmək bazarının tələbləri əsasında həyata keçirilir*

səh. 3

### Tibbi tədqiqata necə başlamaq mövzusunda geniş konfrans keçirilib

*Tədbirdə ölkə və xarici tibb mərkəzlərindən 120-dən çox mütəxəssis iştirak edib*

səh. 4



### Rektor Gəray Gəraybəyli imtahanın gedişini izləyib

O, sessiyanın təşkili ilə bağlı tələbə və nəzarətçilərin fikirlərini öyrənib

səh. 3

# Zərifə Əliyevanın işıqlı xatirəsi xalqımızın qəlbində yaşayır

## Görkəmli alimə həsr olunmuş "Zərif uğurların nişanəsi" adlı tədbir keçirilib



Nəsimi rayon İcra Hakimiyyətinin, YAP Nəsimi rayon təşkilatının və rayon Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevaya həsr olunmuş "Zərif uğurların nişanəsi" adlı tədbir keçirilib.

Tədbirdə Nəsimi rayon İH, YAP Nəsimi rayon təşkilatının və rayon Ağsaqqallar Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, ali təhsil müəssisələrinin professor-müəllim heyəti, səhiyyə işçiləri, ictimai təşkilatların nümayəndələri, idarə və müəssisə rəhbərləri, rayon gəncləri iştirak ediblər.

Tədbirdə Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

İlk olaraq Zərifə Əliyevaya həsr olunmuş sənədli film izlənilib.

Çıxış edən Nəsimi rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Vaqif Şadlinski qeyd edib ki, Əliyevlər ailəsinin xeyir-bərəkət simvolu olan, azərbaycanlı qadın və analara məxsus müqəddəs duyğuları şəxsiyyətində, simasında formalaşdıran Zərifə xanım həyat yoldaşı, dünya şöhrətli dövlət xadimi Heydər Əliyev kimi müdrik, dahi bir insana əsl dost, yaxın silahdaş və mənəvi dayaq olub.

Milli Məclisin deputatı, tibb elmləri doktoru Asim Mollazadə nəzərə çatdırıb ki, Zərifə xanım heç zaman gərgin işdən usanmayıb, ürəkdən və ilhamla çalışıb.



Həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırıb. Unudulmaz alim, qayğıkeş ana olan Zərifə xanım xalqımız tərəfindən daim ehtiramla yad olunur.

Daxili xəstəliklər kafedrasının müdiri, tibb elmləri doktoru, professor Rafiq Məmmədhəsənov bildirib ki, ürəyində və əməllərində işıqlı amalları, nəcib duyğuları yaşadan, özündən sonra zəngin elmi irs, o cümlədən gözəl ailə nümunəsi qoyub gedən Zərifə xanım Əliyeva əfsanəyə çevrilərək xalqımızın qəlbində və yaddaşında yaşamaqda davam edir.

Oftalmologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, Paşa Qəlbinur Zərifə xanımın yüksək insani keyfiyyəti, dərin zəkası, insanlara olan qayğısından, tibb elminə verdiyi töhfələrdən bəhs edib.

Universitetimizin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan, Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov və digər əməkdaşlarımızın da iştirak etdiyi tədbir Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin sənətçilərinin ifasında bədii hissə ilə sona çatıb.

# Akademik Zərifə Əliyevanın ömür yolu hər bir alim və həkim üçün örnəkdir

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikasında görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın həyat yolu və elmi fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan TCK-nın direktoru, dosent Əsədulla Sultanov qeyd edib ki, akademik Zərifə Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin inkişafında əvəzolunmaz rol oynayıb.

Universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov bildirib ki, Zərifə xanımın elmi araşdırmaları, alim kimi qazandığı böyük uğurlar Azərbaycanın tibb elmi tarixində xüsusi yer tutur. O, görkəmli alimin keçdiyi şərəfli ömür yolunun hər bir alim və həkim üçün kamillik və müdriklik məktəbi olduğunu vurğulayıb. M.Səfərov qeyd edib ki, Z.Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elmində ayrıca bir mərhələ təşkil edir.

Oftalmologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Paşa Musayev (Qəlbinur) bildirib ki, Zərifə xanımın təşəbbüsü ilə bir sıra göz xəstəliklərinin profilaktikasına dair tədbirlər həyata keçirilib. Həyatını oftalmologiya elminin inkişafına həsr edən alim çoxsaylı elmi əsər və dərs vəsaitlərinin müəllifi olub. P.Musayev diqqətə çatdırıb ki, tibb işçiləri olaraq Z.Əliyevanın zəngin irsini yaşatmalı, yeni nəsillərə örnək kimi təqdim etməliyik. Böyük alimin əziz xatirəsi daim anılacaq və xalqımızın qəlbində əbədi yaşayacaq.

Tədbir zamanı akademik Z.Əliyevanın həyatı və elmi fəaliyyəti haqqında videoçarx nümayiş olunub.

# Xeyriyyə aksiyasında 65 jurnalist müayinə olunub

Xəbər verdiyimiz kimi, "Modern" Media Qrupu ilə Azərbaycan Tibb Universitetinin ortaq sosial layihəsi çərçivəsində jurnalistlər üçün ödənişsiz göz əməliyyatı təşkil olunur.

Azərbaycan oftalmologiyasının görkəmli nümayəndəsi akademik Zərifə Əliyevanın doğum günü ərəfəsində bu xeyriyyə aksiyası davam etdirilib.

Aksiya zamanı 65 jurnalist müayinələrdən keçirilib. Onların 10-a yaxını üzərində ATU-nun Tədris Cərrahiyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılov və dosent Hafiz Qəhrəmanov tərəfindən



müxtəlif göz əməliyyatları icra edilib. Sosial layihə çərçivəsində media nümayəndələri üçün aksiyanın ikinci hissəsi mayın 10-da aparılacaq.

**Aprelin 29-da Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının növbəti iclası keçirilib. Şura üzvlərini salamlayan rektor, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdıqdan sonra Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin 2024-cü il ərzində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzəsi dinlənilib.**

# Böyük Elmi Şuranın növbəti iclası keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Beynəlxalq əlaqələri genişləndirmək və xarici tələbə sayını artırmaq prioritet vəzifədir

Çıxışına ATU-nun növbəti nailiyyəti haqda xəbərlə başlayan O.İsayev bildirib ki, ötən ilin dekabrında universitetimiz Elm və Təhsil Nazirliyi tərəfindən "Elm və ali təhsilin beynəlmiləlləşməsi" sahəsində fərqləndiyinə görə təşəkkürnamə ilə təltif edilib: "Azərbaycanda təhsil alan əcnəbilərin üçdə biri ATU-nun tələbələridir və hazırda burada 45 ölkədən 2603 nəfər əcnəbi vətəndaş təhsil alır. Ötən ildə bu rəqəm 48 ölkədən 2873 nəfər olub. Əcnəbi vətəndaşlar 5 təhsil pilləsi üzrə təhsil alırlar".



Sözünə davam edən məruzəçi deyib ki, rektorun əmri ilə əcnəbi vətəndaşların Rezidentura və magistratura pilləsinə qəbulunun aparılması üçün yaradılan xüsusi komissiyanın məlumatına görə, 2024-25-ci tədris ilində rezidentura təhsil pilləsində təhsil almaq üçün 70 nəfər müraciət etsə də, onlardan yalnız 17 nəfəri qəbul edilib: "Bu il digər illərdən fərqli olaraq rezidenturaya qəbul həm oktyabr, həm də fevral ayı olmaqla 2 dəfə aparılıb. Qəbul olunan əcnəbi rezidentlərdən 7-si Rusiya, 4-ü Türkiyə, 2-si Gürcüstan, 2-si İraq, 1-i Qazaxıstan və 1 nəfəri İordaniya vətəndaşı olub. Hazırda ümumilikdə rezidenturada 17 ölkədən 22 ixtisas üzrə 85 nəfər rezident təhsil alır. Ən çox rezident Rusiya və Türkiyədəndir. Magistratura pilləsində 1 nəfər Somali vətəndaşı səhiyyə menecmenti ixtisası üzrə, doktorantura pilləsində isə 1 nəfər Yəmən vətəndaşı cərrahiyyə ixtisası üzrə təhsil alır. Bu il Hazırlıq kursunda təhsil almaq üçün 359 nəfər müraciət edib. Keçən il bu rəqəm 973 nəfər olub. Onlardan 117 nəfəri (1 nəfər xaric olub) Hazırlıq kursunda oxumaq hüququ qazanıb. 106 nəfər isə müsahibədən keçə bilməyib. Hazırda qeydiyyatdan keçərək Hazırlıq kursunda təhsil alan 116 nəfərdən 84 nəfəri müalicə işi, 29 nəfəri stomatologiya və 4 nəfəri əczaçılıq ixtisası üzrə təhsil alır. Onlardan 71 nəfər Azərbaycan, 44 nəfər ingilis, 1 nəfər isə rus bölməsində təhsil alır".



Çıxışında dövlət proqramlarından da bəhs edən prorektor bildirib ki, qarşıda duran əsas məsələlərdən biri universitetin müəllim və tələbələrinin beynəlxalq layihələrdə aktiv iştirakının təşkil edilməsi və dünyanın qabaqcıl elm qurumları ilə daha sıx əlaqələrin qurulmasıdır. Əlavə edib ki, ATU-nun dünyaya çıxışı üçün xarici ölkələrin bir çox tanınmış universitetləri ilə ikitərəfli memorandumlar imzalanıb.

Hesabat dövrü ərzində baş tutmuş mühüm tədbirlərə və cari məsələlərə də toxunan O.İsayev, beynəlxalq əlaqələr sahəsində həllini tapan və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan bir sıra işləri də Şura üzvlərinin diqqətinə çatdırıb. Prorektor çıxışında əcnəbi təhsilalanlarla iş istiqamətində fəaliyyətin gücləndirilməsi məqsədilə bir sıra təkliflər səsləndirib.

Sonra çıxış edən Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, Əcnəbi təhsilalanlarla iş üzrə dekanlığın müdiri, dosent Natiq Bayramov və digərləri məruzəni yüksək qiymətləndirərək, rəhbərlik etdikləri kafedra və dekanlıqlarda beynəlxalq əlaqələr istiqamətində aparılan işlə bağlı məlumat verib, mövcud problemlərə dair təkliflər irəli sürüblər.

Hesabat məruzəsi ilə bağlı fikirlərini açıqlayan rektor G.Gəraybəyli diqqəti beynəlxalq əlaqələrə yönəldib. O, xarici tələbələrin sayının hər bir universitetin beynəlxalq aləmdə nüfuzunun göstəricisi olduğunu söyləyib: "Tədris prosesini dövrün tələbləri səviyyəsində qurmaq və beynəlxalq əlaqələri genişləndirmək hər bir ali təhsil müəssisəsinin qarşısında duran prioritet vəzifələrdəndir. Müasir dövrdə beynəlxalq əlaqələri olmayan hər hansı bir müəssisə inkişaf edə bilməz. Hesabatda da deyildiyi kimi, hazırda universitetimizdə üç minə yaxın əcnəbi tələbə oxuyur. Hər kəs bilməlidir ki, onların sayının çox olması universitetimizin maddi bazasının güclənməsi və eləcə də əməkdaşların yüksək maaş alması deməkdir. Ona görə də xarici tələbələrin sayının artırılması üçün zəruri tədbirlər görülməlidir. Bizim əsas vəzifələrimizdən biri beynəlxalq reytinqdə universitetimizin ilk minliyə düşməsidir. Bildiyiniz kimi, Türkiyədə yeni hazırlanmış qanun layihəsi xaricdə əldə olunmuş diplomların ölkədə tanınmasına müəyyən məhdudiyyətlər qoyur. Ötən il bu məqsədlə xüsusi komissiya yaratmışıq və müvafiq şöbə bu işlə ciddi məşğul olur".

Müxtəlif məsələlərə də münasibət bildirən ATU-nun rektoru, Şura üzvlərini mayın 6-8-də keçiriləcək, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü və ATU-nun 95 illik yubileyinə həsr olunmuş festivala dəvət edib.

Bundan sonra universitetimizin təhsilalanlarına (tələbə, magistr və rezident) Q indeksli nüfuzlu beynəlxalq jurnallarda çap olunan hər bir məqaləyə görə mükafat verilməsi təsdiqlənib. ATU-nun beynəlxalq reytinqlərdə daha yüksək mövqe tutması məqsədilə hazırlanmış strategiya və fəaliyyət planlarına baxılıb, "Daxili keyfiyyət təminatı" Komissiyasının əsasnaməsi təsdiq olunub. "ATU Juranlı"nın əsasnaməsi, redaksiya şurası və redaksiya kollegiyasının yeni tərkibini təsdiq edən Şura üzvləri Tibb və sağlamlıq elmləri təhsili kafedrasının əməkdaşlarının hazırladığı metodik tövsiyə və təlimatlara da münasibət bildirib. Bundan başqa, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi tərəfindən hazırlanmış klinik protokollara baxılıb.

Sonda dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləyən Şura, müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

**Mayın əvvəllərində Azərbaycan Tibb Universitetində Tibb Festivalının keçirilməsi planlaşdırılır. Üç gün davam edəcək tədbir ATU-nun 95 illik yubileyinə və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunur.**

## Tibb Festivalına hazırlıq məsələləri müzakirə olunub



Aprelin 16-da ATU-nun rektoru, professor Gəray Gəraybəyli Tibb Festivalına hazırlıq üzrə işçi qrupun üzvləri ilə görüşüb. Toplantıda təşkilati məsələlər müzakirə olunub, iş bölgüsü aparılıb. Rektor bu genişmiqyaslı tədbirə hazırlıq işlərinin gedişi ilə maraqlanıb, tədbirin yüksək səviyyədə təşkilini təmin etmək məqsədilə bir sıra göstərişlər verib.

Universitetin rəhbər şəxsləri, struktur bölmə rəhbərləri, eləcə də inzibati heyətin nümayəndələrinin iştirak etdiyi görüşdə Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov çıxış edərək görülən işlər haqqında məlumatı diqqətə çatdırıblar.

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Kolumbiyanın Javeriana Universitetinin İnteqrativ təbabət kafedrasının müdiri, t.e.d., professor Arturo O'Byrneni qəbul edib.**

## Kolumbiya universitetinin kafedra müdiri rektorla görüşüb



Görüş zamanı professor Gəray Gəraybəyli rəhbərlik etdiyi universitetin tarixindən, qurumun fəaliyyət istiqamətlərindən, təhsil səviyyəsinin inkişafı istiqamətində həyata keçirilən layihələrdən söz açıb. Qarşıda duran vəzifələrdən danışan rektor G.Gəraybəyli, xarici ölkələrin elm mərkəzləri ilə yaradılan əməkdaşlıq əlaqələrinin əhəmiyyətini xüsusi vurğulayıb və bu baxımdan kolumbiyalı professorun səfərini yüksək qiymətləndirib.

Öz növbəsində professor Arturo O'Byrnen dəvət üçün təşəkkürünü bildirərək, tibb sahəsindəki fəaliyyəti haqda danışıb. O indiyədək inteqrativ təbabət mövzusunda 800-dən çox kurs apardığını, bir çox beynəlxalq elmi assosiasiyaların üzvü olduğunu bildirib. Qonaq öz biliklərini ATU-nun tələbələri və gənc həkimlərlə bölüşmək imkanı qazanmasından məmnun olduğunu bildirib.

Qeyd edək ki, professor Arturo O'Byrnen Azərbaycan Tibb Universitetində inteqrativ təbabətlə bağlı universitet əməkdaşları və tələbələr üçün silsilə mühazirələr oxuyub.

# ATU-nun nümayəndə heyəti Azərbaycanlı Həkimlərin Berlin Qurultayında iştirak edib

### Rektor, professor Gəray Gəraybəyli: Məzunlarımızın Almaniyada böyük uğurlara imza atması qürurvericidir

**Aprelin 26-da Alman-Azərbaycan Tibb İşçiləri Birliyinin (Deutsch-Aserbaidschanischer Medizinverband - DAMV) təşkilatçılığı ilə Azərbaycanlı Həkimlərin Qurultayı keçirilib. Berlində yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən qurultayda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli başda olmaqla, universitetin nümayəndə heyəti də iştirak edib.**



Almaniyada və dünyanın bir sıra ölkələrində fəaliyyət göstərən 200-dən çox həkimin qatıldığı tədbirdə çıxış edən rektor Gəray Gəraybəyli qurultayın əhəmiyyətini vurğulayaraq, bu ölkədə çalışan həmkarlarına görə qürur duyduğunu bildirib və Alman-Azərbaycan Tibb İşçiləri Birliyinin fəaliyyətini Azərbaycanda tibb elminin inkişafına böyük töhfə kimi qiymətləndirib.

Rektor qeyd edib ki, Azərbaycanda bütün istiqamətlərdə olduğu kimi, tibb sahəsində də aparılan islahatlar ölkəmizdə səhiyyə sisteminin inkişafına zəmin yaradıb: "Son illər ərzində tibb təhsilində də mühüm dəyişikliklər baş verib. Hazırda ölkəmizdə 4 ali məktəb - Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Qarabağ Universitetinin Tibb fakültəsi tibb təhsili verir. ATU bu ali məktəblərin hər biri ilə əməkdaşlıq edir".

Ömrü boyu Tibb Universitetində çalışdığını və bununla fəxr etdiyini deyən professor G.Gəraybəyli ATU məzunlarının Almaniyada sayılıb-seçilməsindən, böyük uğurlara imza atmasından çox sevindiyini diqqətə çatdırıb.

Açılış çıxışlarından sonra panel iclaslarına start verilib. ATU-nun rektoru "Tibb təhsilinin praktik hissəsinin təşkili və dünya təcrübəsi" mövzusunda I panel müzakirəsində çıxış edib.

ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev "Həkimlərin təşkilatlanması" adlı II panel sessiyasında, Oftalmologiya kafedrasının dosenti, t.e.d. Tural Qəlbinur "Xaricdə çalışan azərbaycanlı həkimlərin Azərbaycan səhiyyəsində iştirakı" mövzusunda III panel müzakirəsində, Psixiatriya kafedrasının dosenti İkram Rüstəmov və Tədris Cərrahiyyə Klinikasının uroloq-androloqu, t.ü.f.d. Vasif İsmayıl isə IV panel çərçivəsində keçirilən açıq müzakirələrdə iştirak ediblər.

Qurultay çərçivəsində təşkil olunan müzakirələrdə Azərbaycan səhiyyəsinin hazırkı vəziyyəti və inkişaf perspektivləri, tibb təhsilindəki problemlər diqqət mərkəzində olub, beynəlxalq əməkdaşlıq imkanları araşdırılıb.

Qeyd edək ki, DAMV 2021-ci ilin yanvarında Almaniyada çalışan azərbaycanlı həkimlər tərəfindən qurulub. Berlin qurultayı Azərbaycan və Avropadakı həkimlər üçün təcrübə mübadiləsinin aparıldığı, səhiyyənin inkişafına dair yeni tendensiyaların bölüşüldüyü önəmli bir platformadır.

# Rektor Gəray Gəraybəyli imtahanın gedişini izləyib

### O, sessiyanın təşkili ilə bağlı tələbə və nəzarətçilərin fikirlərini öyrənib



**Aprelin 12-dən etibarən Azərbaycan Tibb Universitetində aralıq imtahanlara start verilib. Aprelin 16-da ATU-nun rektoru, professor Gəray Gəraybəyli imtahan prosesini izləyib, tələbələrlə söhbət edib. O, sessiyanın təşkili, prosesin gedişatı ilə bağlı tələbə və nəzarətçilərin fikirlərini öyrənib.**

Universitetin rəhbər və məsul şəxsləri prosesin şəffaf aparılması, imtahanların qaydalara uyğun şəkildə keçirilməsi, nəzarət mexanizmlərinin gücləndirilməsi barədə rektora məlumat veriblər.

İnformasiya Texnologiyaları Departamentinin rəhbəri Rəmzi Əliyev həyata keçirilən tədbirlər sırasında imtahan zalında kameraların yeniləndiyini, tələbələrin internet (IP) və fiziki izolyasiyasının təmin olunduğunu bildirib. Bundan əlavə, bu il imtahan sualları öncədən ekspertlər tərəfindən təsdiqlənib və sayı dəqiqləşdirilib. Sualların keyfiyyətcə qiymətləndirilməsi sonradan imtahan nəticələri ilə bağlı apellyasiya şikayətlərinin azalmasına təsir edəcək.

Qeyd edək ki, ixtisas fənləri üzrə aparılan aralıq imtahan sessiyası aprelin 26-dək davam edib.

# Magistratura pilləsində ixtisaslaşmalarla bağlı müzakirələr aparılıb

### Yeniliklər əmək bazarının tələbləri əsasında həyata keçirilir



**Xəbər verdiyimiz kimi, Elm və Təhsil Nazirliyində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələri üzrə yeni təhsil proqramlarının hazırlanması məqsədilə komissiya yaradılıb. Aprelin 24-də Azərbaycan Tibb Universitetində komissiyanın tərkibində formalaşdırılmış təhsil ixtisasları qrupu üzrə işçi qrupunun geniş tərkibdə iclası keçirilib.**

İclasda işçi qrupun üzvləri ilə yanaşı, digər müvafiq qurumların təmsilçiləri də iştirak ediblər.

Universitetin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov işçi qrupun qarşısında duran prioritet məsələlərdən danışıb və indiyədək görülmüş işlər barədə məlumat verərək, həm əczaçılıq, həm də ictimai səhiyyə fənləri üzrə ixtisaslaşmaya dair ilkin müzakirələrin aparıldığını deyib.

Tədris Departamentin müdiri, dosent Kamandar Yaqubov işçi qrupun daxilində alt işçi qrupu səviyyəsində 3 iclas keçirdiklərini, Elm və Təhsil Nazirliyi, eləcə də Səhiyyə Nazirliyi ilə birgə təşkil edə biləcəkləri ixtisaslaşmalarla bağlı təkliflərini müvafiq qurumlara göndərdiklərini diqqətə çatdırıb: "Rektor göstəriş vermişdi ki, auditoriya və müəllim fondumuzu nəzərə almaqla, hazırlaya biləcəyimiz tədris proqramlarını nazirliklərə təqdim edək. Əczaçılıqla bağlı bütün təkliflərimizi vermişik. Menecment ixtisası və biologiya ixtisaslar qrupu ilə bağlı da əlavə təklifimiz yoxdur. Əsas problem fizioterapevt və tibbi reabilitasiya, tibb bacısı və tibb qardaşı ixtisasları ilə bağlıdır. Bizə tutulan bir irad da ondan ibarətdir ki, ixtisasla ixtisaslaşmanın adı eyni ola bilməz. Bu nöqteyi-nəzərdən geniş tərkibdə yığışıb müzakirələri davam etdirmək qərarına gəldik".

İclasda çıxış edən Elm və Təhsil Nazirliyində universitetimizin yeni təhsil proqramlarının təsdiq olunması üzrə komissiyanın həmsədri, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova bildirib ki, əczaçılıqla bağlı nazirliyin təklifi ATU-nun təklifindən fərqli deyil. Ona görə də bu məsələdə problem yoxdur: "Amma düşünürük ki, fizioterapiya üzrə magistratura pilləsində "reabilitasiya" sözü olmasın. Fizioterapiya niyə yalnız nevrologiyada tədris olunmalıdır? Təklifimiz odur ki, kardiovaskulyar cərrahiyyənin inkişaf etdiyi vaxtda fizioterapiya kardiologiyada, həmçinin travmatologiyada tədris edilsin və cərrahiyyədə tibb bacısı və tibb qardaşı ixtisası üzrə magistraturanı bitirən şəxslər çalışsın".

İclasın gedişində magistratura təhsil səviyyəsi üzrə ixtisaslaşmaların yekun siyahısının təsdiqi də müzakirəyə çıxarılıb və əczaçılıq sahəsi üzrə əczaçılıq kosmetologiyası, ədliyyə toksikologiyası, farmakologiya, əczaçılıq fitoterapiyası, klinik əczaçılıq, sənayedə əczaçılığın analizi ixtisaslaşmalarının açılması təklif olunub.

Qeyd edilib ki, əsas məqsəd əmək bazarındakı tələbatı nəzərə almaqla tələbə və magistr yönümlü tədris proqramlarının hazırlanmasıdır.

## Fakültələrdə tədris planları yenilənir

**Növbəti tədris ilindən etibarən universitetimizdə bakalavriat, baza ali tibb və magistratura pillələrində tədris planları yenilənir. Bununla əlaqədar olaraq İctimai səhiyyə və Əczaçılıq fakültələrində ATU-nun rəhbər şəxslərinin iştirakı ilə görüşlər keçirilib.**

Tədris işləri üzrə prorektor, professor Nazim Pənahov Əczaçılıq fakültəsində magistratura pilləsində tədris olunan ixtisaslarla bağlı yenilikləri nəzərə çatdırıb. Qeyd edib ki, tədris planlarının yenilənməsi işinə universitet rəhbərliyi və kollektivi ilə yanaşı, əmək bazarının təmsilçiləri də cəlb olunub.

Tədris Departamentinin müdiri Kamandar Yaqubov İctimai səhiyyə fakültəsində tədris edilən ixtisasların beynəlxalq təhsil sistemində mövcud olanlara uyğunlaşdırılması məsələsi ilə bağlı danışıb, bu barədə iclas iştirakçılarının fikirlərini öyrənib.

**Aprelin 22-də AMEA-nın Rəyasət Heyətinin binasında Türk dünyasının görkəmli alimi, səhiyyə və təhsil qurucusu, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, professor İhsan Doğramacının anadan olmasının 110 illiyinə həsr edilmiş elmi konfrans keçirilib.**

# Professor İhsan Doğramacının 110 illiyi qeyd olunub



Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, AMEA-nın Rəyasət Heyətinin üzvləri, AMEA-nın elmi-tədqiqat müəssisələrinin, AR ETN-in Riyaziyyat və Mexanika İnstitutunun, Azərbaycan Tibb Universitetinin və AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin əhatə etdiyi elmi müəssisələrin əməkdaşları iştirak ediblər.

Konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti İsa Həbibbəyli professor İhsan Doğramacının türk dünyasının son 100 ildə yetişdirdiyi ən önəmli və əfsanəvi şəxsiyyətlərindən biri olduğunu söyləyib. Qeyd edib ki, onun Türkiyədə və eləcə də bütün türk dünyasında səhiyyənin, təhsilin inkişafına verdiyi töhfələr bu gün qürurla, iftixarla xatırlanır.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxışında professor İhsan Doğramacı ilə ilk tanışlığından, onun Bakıya səfərlərindən və Ulu Öndər Heydər Əliyevlə olan sıx dostluq, qardaşlıq münasibətlərindən danışıb. Böyük müəllimi ilə ilk tanışlığının Moskvada 1980-ci illərin əvvəlində Dünya pediatrlarının tədbirində baş tutduğunu söyləyən Ə.Əmiraslanov onu Bakıya bütün səfərlərində müşayiət etdiyini vurğulayıb. Qeyd edib ki, 1992-ci ildə Bakıya səfəri zamanı professorun təşəbbüsü ilə Azərbaycan Tibb Universitetinin 10 tələbəsi Bilkənd Universitetinə göndərilib və həmin şəxslər sonralar ölkəmizdə səhiyyənin inkişafına mühüm töhfələr veriblər.

Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov, Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, tibb elmləri doktoru, professor Rauf Bəylərov və digər çıxış edənlər professor İ.Doğramacı ilə bağlı xatirələrindən, onun səhiyyə və təhsilin inkişafına verdiyi töhfələrdən danışıblar.

# Tibbi tədqiqata necə başlamaq mövzusunda geniş konfrans keçirilib

## Tədbirdə ölkə və xarici tibb mərkəzlərindən 120-dən çox mütəxəssis iştirak edib

**Aprelin 14-də Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Health and Science İnitiatives şirkətinin birgə təşkilatçılığı ilə ATU-da «Tibbi tədqiqata necə başlamaq və onu necə aparmaq olar: ideyadan dərcə və nəzarətə qədər» mövzusunda elmi-praktiki konfrans keçirilib.**



Konfransdan sonra iki gün ərzində Health and Science Initiatives nəzdində Elmi Araşdırmalara Dəstək Mərkəzi tərəfindən "Good Clinical Practice (GCP) – Etibarlı Klinik Təcrübə" təlimi təşkil olunub. Təlimdə uğurla iştirak edən tədqiqatçı həkimlərə beynəlxalq dərəcəli, ISO standartlarına uyğun, üç illik sertifikat verilib.

Konfransda Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev, I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor, t.e.d., əməkdar həkim Rauf Bəylərov moderator qismində fəaliyyət göstəriblər. Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinin müdiri Fərid Həsənov, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun böyük elmi işçisi, yerli Etik Komitənin katibi, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti və Health and Science Initiatives MMC-nin direktoru Mərziyyə Məmmədova, Almaniyada fəaliyyət göstərən klinik tədqiqatlar üzrə mütəxəssis, GCP və dərman təhlükəsizliyi üzrə tibbi ekspert Jalə Ağayeva və qulaq-burun-boğaz həkimi, allerqoloq, GCP üzrə ekspert, Almaniyada Azərbaycanlı Tibb İşçiləri Birliyinin sədr müavini Elşən Ağayev məruzəçi qismində geniş təqdimatlarla çıxış ediblər.

Məruzələr zamanı iştirakçılara ideya mərhələsindən başlayaraq tədqiqat sualının formalaşdırılması, metodologiyanın müəyyənləşdirilməsi, tibbi tədqiqatların dizaynı və planlaşdırılması, etik prinsiplərin tətbiqi, məlumatların toplanması və təhlili, elmi məqalə yazılışı, klinik tədqiqatların beynəlxalq standartlara uyğun aparılması ilə bağlı Good Clinical Practice qaydaları, farmakonəzarət prinsipləri və Contract Research Organisation (CRO) ilə əməkdaşlıq imkanları haqqında faydalı məlumatlar təqdim olunub.

Tədbirdə müxtəlif səhiyyə müəssisələrindən 120-dən çox həkimlər, elmi işçilər, tədqiqatçılar, o cümlədən ictimai birliklərin nümayəndələri və Almaniya, İngiltərədən olan rezident və mütəxəssislər iştirak edib.

Konfransın sonunda prorektor O.İsayev tədbirin təşkilatçılarına, ATU-nun əməyi keçən əməkdaşlarına, eləcə də sponsorlara – ROXALL Group, Materia Medica, Remedi və Avromed şirkətlərinə universitet rəhbərliyinin təşəkkürünü çatdırıb.

# Kolumbiyalı mütəxəssis ATU-da mühazirələr oxuyub

## Professor Arturo O'Byrnenin çıxışları böyük maraqla qarşılanıb





**Kolumbiyanın Javeriana Universitetinin İnteqrativ təbabət kafedrasının müdiri, t.e.d., professor Arturo O'Byrnenin iştirakı ilə universitetimizdə silsilə seminarlar təşkil olunub. Əczaçılıq fakültəsinin korpusunda baş tutan ilk seminarda "İnteqrativ Təbabət Konsepsiyasına giriş" mövzusunda mühazirə oxuyan kolumbiyalı alimin növbəti gün "Sistemli biologiyadan sistemli təbabətə qədər" mövzusunda məruzəsi dinlənilib.**

Seminarı giriş sözü ilə açan Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva əvvəlcə inteqrativ təbabətin tarixi inkişaf yolundan danışıb. O, interativ təbabəti elmi, akademik təbabətə dəstək verən köməkçi bir elm sahəsi kimi xarakterizə edərək bildirib ki, dünyanın bir çox ölkələrində inteqrativ təbabətin mərkəzləri, klinikaları, universitetləri fəaliyyət göstərir. Azərbaycanda inteqrativ təbabətin hələ VIII əsrdən inkişaf etdiyini deyən professor M.Vəliyeva dərman bitkiləri, arı və zəli, eləcə də gülüşlə, rənglərlə müalicənin bəzi vacib aspektlərinə toxunub. Eyni zamanda inteqrativ təbabətə Azərbaycan Tibb Universitetində də xüsusi diqqət yetirildiyini, bu sahə üzrə peşəkar kadrların çalışdığını, ona görə də seqmentar-metamer biopunktura üsulunun banisi, bioloji təbabət üzrə mütəxəssis Arturo O'Birnenin mühazirəsinə bu qədər böyük maraq göstərildiyini söyləyib.

Qonağa və tədbir iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdıran Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan seminarın əsas məqsədi və məramı haqqında məlumat verib. İnteqrativ təbabətin tibbin bütün sahələrində, o cümlədən xəstəliklərin həm müalicəsində, həm də reabilitasiya tədbirlərinin aparılmasında əhəmiyyətli rol oynadığını vurğulayıb.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov xarici mütəxəssislərin əməkdaşlarımız və tələbələrimiz qarşısında çıxışlarının əhəmiyyətini diqqətə çatdırıb. Bu nöqteyi-nəzərdən kolumbiyalı professorun mühazirəsinin faydalı olacağına əminliyini ifadə edib.

Bioloji təbabət və Antihomotoksik Terapiya Cəmiyyətinin prezidenti, professor, Beynəlxalq Elmlər Akademiyasının (H&E) akademiki Fikriyyə İbrahimli xroniki xəstəliklərin müalicəsinə yeni yanaşmalardan söz açıb. Qeyd edib ki, inteqrativ təbabət xroniki xəstəliklərin müalicəsi üçün 21-ci əsrin təbabətidir.

Bundan sonra mühazirəsini təqdim edən Arturo O'Byrnen əvvəlki çıxışında inteqrativ təbabətin təkamülündən danışdığını xatırladıb, yeni mühazirəsində isə inteqrativ təbabətin əsas prinsiplərinin necə dəyişməsinə diqqət çəkib. 7 min illik tarixi olan bu sistemin Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ilk tibbi sistem kimi qəbul edildiyini söyləyərək, min illər əvvəl xəstəlik deyil, xəstənin quruluşunun əsas götürüldüyünü vurğulayıb. Onun sözlərinə görə, uzun illər bu yanaşmanın elmi əsasının olmadığı qəbul edilsə də, hazırda sistemli təbabət formalaşıb. İnteqrativ təbabətin ənənəvi tibb və Qərb təbabəti ilə əlaqələri haqqında fikirlərini də tədbir iştirakçıları ilə bölüşən mütəxəssis, seminarın sonunda mövzuyla bağlı sualları cavablandırıb.

Qeyd edək ki, səfər çərçivəsində professor Arturo O'Byrnen və onunla birlikdə gəlmiş nümayəndə heyəti ATU-nun Tədris Cərrahiyyə Klinikasını ziyarət edib. Direktor, dosent Əsədulla Sultanov klinikanın strukturu və fəaliyyətindən bəhs edib və qonaqları maraqlandıran sualları cavablandırıb.

**Azərbaycan Tibb Universitetinin Tibb və sağlamlıq elmləri təhsili kafedrasının müdiri, dosent Samir Cavadlı TUFH (The Network Towards Unity For Health) şəbəkəsinin təşkil etdiyi HWEPG ("Səhiyyə işçilərinin təhsilinin cəmiyyətin ehtiyaclarına uyğunlaşdırılması") adlı beynəlxalq təqaüd proqramını uğurla başa vurub.**

# Əməkdaşımız beynəlxalq təqaüd proqramını uğurla başa vurub




Regional mərkəzlər üçün keçirilən TUFH HWEPG Teaching Fellowship 2025 Proqramının məqsədi təhsil liderləri ilə tərəfdaşlıq şəklində işləyərək onların mövcud HWEPG kursunu öz regionlarına uyğunlaşdırmasını və həyata keçirməsini təmin etməkdir. Proqramda iştirakçıların digərləri ilə paylaşa biləcəkləri kurrikulum dizaynı və tədris bacarıqları yer alır. Mövcud HWEPG kursunun materialları iştirakçılara dəyişdirilmək və ya olduğu kimi istifadə edilmək üçün sərbəst şəkildə təqdim olunub.

Bu kurs dəyişiklik alətləri – qiymətləndirici sorğu, liderlik, birgə iş alətləri – cəmiyyətlə əlaqə, sektorlararası komanda işi, layihənin hazırlanması və qiymətləndirilməsi, yekun təqdimatlar: öz regionlarına uyğunlaşdırılmış kursun inkişafı, həyata keçirilməsi və qiymətləndirilmə planı olmaqla, 6 moduldan ibarətdir. Akademik heyətin effektiv inkişafı, cəmiyyətin ehtiyaclarının müəyyənləşdirilməsi, səhiyyə professionallarının təhsilinin davamlı şəkildə bu ehtiyaclara görə uyğunlaşdırmasını əsas götürülür. S.Cavadlı proqramın yekun layihəsi çərçivəsində Azərbaycan kontekstinə uyğun bir kursun inkişaf, tətbiq və qiymətləndirmə planını hazırlayaraq təqdim edib.

Təqaüd proqramı iştirakçılara təkcə peşəkar biliklərini artırmağa deyil, həm də beynəlxalq həmkarları ilə təcrübə mübadiləsi aparmağa, yerli səhiyyə və təhsilin inkişafı üçün yeni perspektivlər kəşf etməyə imkan verir. Əldə edilən təcrübənin universitetimizdə tətbiq olunmaqla tələbələrimizə və müəllim heyətinə daha effektiv və cəmiyyətyönümlü təhsil təklif etməsi hədəflənir.

Bu təcrübə səhiyyə təhsilində innovasiyaların təşviqi yolunda mühüm addımdır.

# Tələbə Elmi Cəmiyyətinin konfransları bayram əhval-ruhiyyəsində keçib

## Gələcəyin hərbi həkimləri elmi işlərini təqdim edib

**Aprelin 18-də Hərbi tibb fakültəsində Azərbaycan Tibb Universitetinin 95, adıçəkilən fakültənin isə 25 illik yubileyinə həsr olunmuş Tələbə Elmi Cəmiyyətinin VII konfransı keçirilib.**

Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu ehtiramla yad edilib, Azərbaycan Dövlət Himni səsləndirilib. Hərbi tibb fakültəsinin şəhid həkimlərindən bəhs edən video-rolikin nümayişindən sonra fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev çıxış edib. O, 2000-ci ildə fakültənin yaradılmasını Ümummilli Liderin Azərbaycan hərbi təbabətinə ən dəyərli töhfəsi kimi qiymətləndirib. Onun davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan gəncliyinə, o cümlədən gənclərin hərbiyə və elmə olan marağının gücləndirilməsinə hərtərəfli diqqətindən danışıb.

TEC-in konfransının əhəmiyyətini vurğulayan fakültə rəisi, tələbələrin bir-birindən maraqlı 16 elmi işlə çıxış edəcəyini bildirib, onların gələcəkdə elmi araşdırmalarını davam etdirməsini arzulayıb.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan öz çıxışında fakültə rəhbərliyinə və konfrans iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb. Bildirib ki, bu cür konfransların keçirilməsi gələcəkdə tələbələrimizin elmi araşdırmalar aparmaları istiqamətində bir bünövrə rolunu oynayır: “Mən özüm də Hərbi tibb fakültəsinin tələbələrinə mühazirə deyirəm. Praktiki dərslərdə tələbələrlə ünsiyyətdə oluram. Çox sevindiricidir ki, onlardakı Vətən sevgisi, vətənpərvərlik hissi tamamilə fərqlidir. Bu da bizi tədris zamanı onlara münasibətdə spesifik yanaşmağa vadar edir. 2020-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə tarixi Zəfərimizin qazanılmasında hərbi həkimlərimizin böyük və qürurverici xidmətləri oldu. Biz həmişə olduğu kimi, bu konfransda da şəhid həkimlərimizi böyük ehtiramla yad etdik. Qəhrəman şəhidlərimizi heç zaman unutmayacaq, gələcək nəsillərin yetişdirilməsində onlardan nümunə götürəcəyik”.



Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, 1-ci dərəcəli kapitan Nurulla Əliyev də çıxışı zamanı 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatlarının Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını vurğulayıb. Bu müharibənin qələbə ilə nəticələnməsinə zabitlərimizin, əsgərlərimizin, bütünlüklə xalqımızın öz töhfəsini verdiyini qeyd edib. Azərbaycan Tibb Universitetinin yetirmələrinin müharibədə qəhrəmanlıq nümunələri göstərmələrindən qürur duyduğunu və fəxr etdiyini dilə gətirən N.Əliyev, bu konfransın kursantların həyatında elmə doğru önəmli addımlardan biri olacağını deyib.

Sonra kursantlar elmi məqalələrlə çıxış edib. Sual-cavab əsnasında öz işini başa çatdıran tədbirin sonunda fakültə rəisi M.Rzayev iştirakçılara və çıxış edənlərə minnətdarlığını bildirib. Münsiflər heyəti isə qalibləri elan edib.

**Aprelin 22-də II Müalicə-profilaktika fakültəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) Azərbaycan Tibb Universitetinin 95 illiyinə həsr olunmuş konfransı keçirilib. Konfransın açılış mərasimində əvvəlcə Dövlət Himnimiz səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və xalqımızın azadlığı və müstəqilliyi uğrunda öz canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

## Builki konfranslara II Müalicə-profilaktika fakültəsində yekun vurulub

Tədbirin moderatoru, II Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Leyla Səfərli bu konfransın gənc tədqiqatçıların, elmə maraq göstərən tələbələrin öz bilik və bacarığını nümayiş etdirə bildiyi önəmli bir platforma olduğunu söyləyərək, sözü fakültənin dekanı, konfransın sədri, dosent İsrail Məhərrəmbəyliyə verib. Bayram əhval-ruhiyyəli konfransda Tələbə Elmi Cəmiyyətinin “köynəyindən çıxmış” alimlərin iştirakından məmnunluğunu dilə gətirən dekan, onların hər birinə və bütün qonaqlara təşəkkürünü bildirib. O, TEC-in fəaliyyətinin ildən-ilə daha da canlandığını, tədqiqat sahələrinin genişləndiyini söyləyərək qeyd edib ki, 84 tələbəmiz çıxışa yazılıb və ümumilikdə 180-ə yaxın məqalə təqdim olunub. Bütün bunlar tələbələrin elmə marağının göstəricisidir. Təcrübə də göstərir ki, ən yaxşı klinisistlər araşdırmaçı həkimlərdir.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan istedadlı tələbələrin elmi işə cəlb olunmasının çox vacib məsələlərdən biri olduğunu vurğulayıb. Konfransın işinə uğurlar arzulayan prorektor tələbələrin tədqiqat işinə maraq göstərməsinin hər zaman hiss edildiyini söyləyib: “Fakültələr üzrə TEC-in sonuncu konfransı keçirilir. Hər dəfə bu zalda bir həyəcan, bir coşqu hiss olunur. Ən maraqlısı da odur ki, tələbələrlə bərabər bizi də həyəcan bürüyür, tələbəlik dövrünü xatırlayırıq”.

Rektor, professor Gəray Gəraybəylinin TEC-in bütün konfranslarını nəzarətdə saxladığını, nəticələrlə maraqlandığını və qazanılan nailiyyətləri yüksək qiymətləndirdiyini diqqətə çatdıran prorektor, hər bir



tələbənin gələcəkdə həkim kimi formalaşmasında elmi fəaliyyətin böyük əhəmiyyət daşıdığını deyib.

Həm tələbələri, həm də müəllimləri Tələbə Elmi Cəmiyyəti Şurası adından salamlayan TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov bildirib ki, rəhbəri olduğu təşkilatın həyata keçirdiyi fəaliyyət təhsil prosesinin ayrılmaz hissəsidir: “Təhsil prosesində tələbələr öz bacarıqlarını, yaradıcılıq və tədqiqat işlərini nümayiş etdirməklə elmin inkişafı yolunda universitetimizə, ölkəmizə töhfə verməkdədirlər. Bu baxımdan görürük ki, sadədən mürəkkəbə doğru böyük bir inkişafa nail olmuşuq. Bu inkişaf ilk növbədə Azərbaycan tibb elminə, tibb təhsilinə xüsusi töhfə verən Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Elmi fəaliyyət istiqamətində görülən bu işlər möhtərəm prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilməkdədir”.

Konfransın işinə onlayn qoşulan Naxçıvan Dövlət Universitetinin Elmi və innovasiya işləri üzrə prorektoru Elsevər Əsədov elmi-tədqiqat işləri aparmaq üçün resursların artmasını müsbət hal kimi dəyərləndirərək, beynəlxalq arenaya çıxmağın heç də asan olmadığını bildirib. Bu nöqteyi-nəzərdən Naxçıvan Dövlət Universitetinin digər ali məktəblərlə, o cümlədən Azərbaycan Tibb Universiteti ilə elmi əlaqələrinin genişlənməsinin vacibliyinə toxunub və konfransın işinə uğurlar arzulayıb.

II MPF-nin Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, dosent Aqil Əliyev konfransın tərkibi, gedişi barədə məlumat verərək bildirib ki, təqdim edilən tədqiqat işləri ildən-ilə artır. Belə ki, əgər 2017-2018-ci illərdə təqdim edilən işlərin sayı 80 idisə, keçən il 150-yə çatıb, bu il isə daha çoxdur: “Ona görə də kafedralardan xahiş edirik ki, ən yaxşılarını seçib göndərsinlər. Onu da qeyd edim ki, elmi işləri artıq qəbul olunan, konfransın materiallarında dərc olunan tələbələr, hansı yeri tutmalarından asılı olmayaraq artıq qalibdirlər”.

ATU TEC-in sədri Həmid Səfərli, fakültə TEC-in sədri Fidan Seyfullayeva, II Müalicə-profilaktika fakültəsinin tələbə-dekanı Eldar Baxşəliyev də açılış mərasimində çıxış edərək öz təəssüratlarını bölüşüblər.

Açılış mərasimindən sonra konfrans öz işini panellər üzrə davam etdirib, sonda qaliblərə diplom və sertifikatlar təqdim olunub.

**Arif MƏMMƏDLİ**

## Əməkdaşlarımız Türkmənistandan qayıdıb

**Aprelin 16-17-də Türkmənistan Respublikasının paytaxtı Aşqabad şəhərində Murat Kariyev adına Türkmənistan Dövlət Tibb Universitetində (TDTU) I Beynəlxalq Tibb Konqresi keçirilib.**

Konqresdə Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqatların İdarə Olunması Departamentinin şöbə müdiri, tibb elmləri doktoru Müşviq Həsənov və ATU-nun Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov iştirak ediblər. Tədbirin rəsmi açılış mərasimində M.Həsənov çıxış edərək, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından tədbir iştirakçılarını salamlayıb.

Sonra əməkdaşlarımız plenar iclaslarda elmi məruzələr oxuyub, verilən sualları ətraflı şəkildə cavablandırıblar.

TDTU-nun rektoru, professor Nargözəl Muratnəzərova çıxışı zamanı azərbaycanlı alimlərin tədbirdə iştirakına şərait yaratdığına görə, ATU-nun rektoru, professor G.Gəraybəyliyə xüsusi minnətdarlığını bildirib.

Konqresin sonunda əməkdaşlarımız xüsusi mükafata layiq görülüblər.






## Kafedra müdiri beynəlxalq konqresdə çıxış edib

**Aprelin 9-dan 12-dək Türkiyənin Antalya şəhərində ağciyər xəstəlikləri üzrə beynəlxalq konqres keçirilib.**

Türkiyənin Ağciyər Sağlamlığı və Reanimasiya Dərnəyinin təşkilatçılığı ilə baş tutan tədbirdə ABŞ, İngiltərə, Almaniya, Azərbaycan, İrlandiya, Hollandiya və İspaniyadan 1112 nəfər iştirak edib.

Bronxial astma, ağciyər vərəmi, interstisial ağciyər xəstəlikləri, ağciyərlərin xroniki obstruktiv xəstəliyi və digər ağciyər patologiyalarının diaqnostika və müalicəsinə müasir yanaşmalara həsr olunan bu konqresə Azərbaycandan ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov və kafedranın əməkdaşı Ceyhun İsmayılzadə qatılıb.

R.Bayramov dəvətli məruzəçi qismində “Azərbaycanda vərəm: mövcud durum və hədəflər” mövzusunda çıxış edib və iştirakçıların suallarını cavablandırıb. Əməkdaşlarımız tədbir çərçivəsində Türkiyə və digər ölkələrdən olan mütəxəssislərlə fikir mübadiləsi və müzakirələr aparıb.

## Amerikalı alim rezidentlərimizə mühazirə oxuyub

Universitetimizin rezidentləri üçün növbəti mühazirə üzün estetik cərrahiyyəsi mövzusunda olub. Rezidentura və magistratura şöbəsi ilə Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin birgə təşkil etdiyi tədbirdə amerikalı professor, Visage Surgical İnstitutunun direktoru, estetik cərrahiyyə üzrə tanınmış mütəxəssis Faisal A.Quereshy mühazirə ilə çıxış edib.

Tədbirin əvvəlində Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva və universitetin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov çıxış edərək bu cür tədbirlərin əhəmiyyətini vurğulayıblar.

Daha sonra ABŞ-nin Case Western Reserve Universitetinin Üz-çənə cərrahiyyəsi kafedrasının professoru Faisal A.Quereshy rekonstruksiya cərrahiyyəsinin aktual problemlərindən danışıb, ortoqnatik cərrahiyyə yolu ilə üzün estetik cərrahiyyəsi mövzularında fikirlərini çatdırıb. Amerikalı professor mühazirəsində həm də konkret nümunələr üzrə təcrübəsini paylaşıb.



# İki kafedranın birgə təşkilatçılığı ilə simpozium keçirilib



**Aprelin 12-də Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər və Təcili tibb kafedralarının birgə təşkilatçılığı ilə simpozium keçirilib. Açılış nitqi ilə çıxış edən universitetin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan tədbiri iki kafedranın birgə təşkil etməsini alqışlayıb.**

Simpozium "Endokrin təcili hallara təcili və planlı yanaşma" kimi aktual mövzuya həsr olunduğunu vurğulayan prorektor, mütəxəssislərin təqdim edəcəyi çıxışların həm elmi, həm də praktik cəhətdən həkimlər və tələbələr üçün faydalı olacağını diqqətə çatdırıb.

Dövlət Himni səsləndirildikdən sonra I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov və Təcili tibb kafedrasının müdiri, dosent Nadir Zeynalovun moderatorluğu ilə simpozium öz işinə davam edib. Moderatorlar mövzuların aktuallığına toxunub, tədbir iştirakçılarına uğurlar arzulayıblar.

Professor N.Bayramov bu tədbirin iki kafedranın birgə təşkilatçılığı ilə ərsəyə gəlməsinin bir yenilik olduğunu və bundan sonra başqa kafedraların da Təcili tibb kafedrası ilə birlikdə tədbirlər hazırlayacağını bildirib: "Biz tibb təsilinin ana nöqtələrinə qayıdırıq. Əsas hədəf təcili müdaxilə tələb olunan xəstələnmə hallarında tibbi yardımı necə təşkil etmək və düzgün diaqnostikanı mənimsəməkdir".

Sonra panel müzakirələrdə Təcili tibb kafedrasının assistenti Fəxriyyə Quliyeva "Qalxanabənzər vəzinin təcili halları", I Cərrahi xəstəliklər kafedrasının assistenti Azər Hümmətov "Graves xəstəliyinə bağlı tireotoksikozu olan xəstələrdə təcili tiroidektomiyalarda təcrübəmiz", "Real" hospitalın həkim-terapevti Ağa İsmayılov "Tireotoksikozlu xəstələrin əməliyyatönü hazırlığında plazmoferezin rolu", "Alturamedix Group" MMC-nin direktoru Tural Alıyev "Mədəaltı vəzinin təcili halları" mövzularında çıxış ediblər. Simpozium sual-cavab əsnasında öz işini başa çatdırıb.

**Qabil ABDULLAYEV**

**Aprelin 18-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Miqren Mütəxəssisləri İctimai Birliyinin təşkilatçılığı və ATU-nun dəstəyi ilə "Miqrenin diaqnostika və idarə edilməsində 10 addım" mövzusunda geniş elmi-praktik tədbir keçirilib.**



# "Miqrenin diaqnostika və idarə edilməsində 10 addım"

## Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyi ilk tədbirini aktual mövzuya həsr edib

Toplantını giriş sözü ilə açan İctimai Birliyin sədri, professor Sədaqət Hüseynova yeni təşəkkül tapmış birliyin məqsəd və hədəflərindən, qarşıda duran vəzifələrdən danışıb: "Bütün başqa sahələrdə olduğu kimi, miqrenə də yanaşma dəyişib. Tək miqren deyil, digər baş ağrılarına yanaşma da başqa mərhələyə keçib. Dünyada bu sahədə həm diaqnostika, həm də müalicə istiqamətində baş verən yenilikləri ölkəmizə gətirmək, həkimlərə çatdırmaq, bu sahədə olan elmi boşluqları aradan qaldırmaq və məlumatlanmanı artırmaq üçün belə bir cəmiyyəti qeydiyyatdan keçirdik. Professor Məsud Aşinanın təşəbbüsü və dəstəyi ilə təsis edilən bu təşkilatın əsas məqsədi əhalinin, o cümlədən tibbi kadrların baş ağrıları barədə məlumatlandırılması, bu barədə biliklərin artırılması, eyni zamanda, müasir təcrübə və nailiyyətlərin ölkədə geniş yayılması, təlim və tədqiqatların aparılması, nəticədə bu sahədə inkişafa nail olmaqdan ibarətdir. Biz baş ağrıları sahəsində olan qabaqcıl təcrübə və yenilikləri Azərbaycan həkimlərinə çatdırmaqda bir zəncir rolunu oynamaq və bu sahədə olan çatışmazlıqları aradan qaldırmaq istəyirik. Həmin işləri yerinə yetirmək üçün müvafiq beynəlxalq təşkilatlar, həm də yerli qurumlarla sıx əlaqələr qururuq. Yarandığımız qısa müddət ərzində Avropa Baş Ağrısı Federasiyası, Türkiyə Küresel Miqren və Ağrı Dərnəyi ilə əməkdaşlıq memorandumları imzalamışıq.

Bugünkü tədbirin əsas məqsədi isə həm bu ictimai birliyin təqdimatı, həm də miqren sahəsində çox mühüm sənəd olan "Miqrenin diaqnostikası və idarə edilməsində 10 addım" konsepsiyasının yerli mütəxəssislərə çatdırılmasından ibarətdir".

Tədbirdə çıxış edən Terapevtik Klinikanın direktoru, professor Vəsadət Əzizov İctimai Birliyin yaradılmasını yüksək qiymətləndirib və qeyd edib ki, miqrenin diaqnostik meyarları, müalicə alqoritmi müəyyənləşib. O, səhiyyədə yeniliklərin bölüşülməsinin ciddi əhəmiyyət kəsb etdiyini söyləyib və elmi-praktik tədbirin işinə uğurlar arzulayıb.

Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyinin təsisçilərindən biri, ATU-nun Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli təşkilatın ilk tədbirinin keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Vurğulayıb ki, çoxsaylı mütəxəssislər, gənc həkim-rezidentlər, istedadlı tələbələrin iştirak etdiyi tədbirdə çox mühüm məsələlərə - miqren və baş ağrılarının idarə edilməsi və müalicəsinə toxunulması, mütəxəssislərin öz təcrübəsini bölüşməsi Azərbaycan səhiyyəsi adına faydalı olacaq.

Sonra Danimarka Baş Ağrıları Mərkəzinin direktoru, professor Məsud Aşinanın tədbir iştirakçılarına videomüraciəti səsləndirilib.

Bundan sonra tədbir məruzələrlə davam edib. Respublika Diaqnostika Mərkəzindən Sərxan Əmirquliyev "10 Step-ə əsaslanan miqrenin müalicə alqoritmi", ATU-dan Rəna Səmədova "Miqrenin diaqnostikasında köməkçi və skrininq vasitələri. Miqrenin müalicə cavabının qiymətləndirilməsi üçün alətlər" mövzularında və digər mütəxəssislər çıxış ediblər.

Tədbirin sonunda mövzular ətrafında müzakirələr aparılıb və tibb işçilərinə sertifikatlar təqdim olunub.

# Alimlərimiz Qazaxıstan universitetində mühazirələr oxuyub

**Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və Elmi Araşdırmalar Mərkəzinin Elektron mikroskopiya şöbəsinin müdiri, dosent Fuad Rzayev aprelin 6-dan 12-dək Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universiteti rəhbərliyinin dəvəti ilə "Qonaq professor" proqramı çərçivəsində mühazirələr oxuyublar.**



Qeyd edək ki, 2022-ci ilin mart ayında ATU ilə Qazaxıstan universiteti arasında elm və səhiyyə sahəsində birgə əməkdaşlıq memorandumu imzalanıb. Səfər müddətində ilk olaraq Elm Həftəsi çərçivəsində professor E.Qasımov tərəfindən "İnsan dərisində buynuzlaşma prosesinin və epidermisin yenilənməsinin ultrastruktur və molekulyar əsasları", dosent F.Rzayev tərəfindən isə "Bioloji obyektlərin ultrastruktur tədqiqinin müasir üsulları" mövzularında master-klaslar keçirilib. Bununla yanaşı, universitetin Histologiya kafedrasının müdiri Janat Eskarayevnanın rəhbərliyi ilə orada aparılan tədris prosesi, maddi-texniki baza və laboratoriyalarla tanışlıqdan sonra gənc alim, tədqiqatçı və tələbələr üçün E.Qasımov "Qaraciyərdə detoksikasiya prosesinin və öd əmələ gəlməsinin ultrastruktur əsasları", F.Rzayev isə "Stress şəraitində hüceyrələrdə baş verən dəyişikliklərin ultrastruktur xüsusiyyətləri" mövzularında mühazirələr oxuyublar.

"Qonaq professor" proqramı çərçivəsində alimlərimizin elmi məsləhətçiləri olduğu, fəlsəfə doktoru elmi adı almaq üçün (PhD) "Tibb" ixtisası üzrə təhsil alan doktorantlar Kuanış Baytenov və Altınay Jurqenova ilə görüşlər keçirilib. Görüşlərdə elmi-tədqiqatların yerinə yetirilməsi istiqamətində müzakirələr aparılıb, əldə olunan bəzi nəticələr əsasında hazırlanan məqalələrə dair tövsiyələr verilib. Adları çəkilən doktorantların elmi işlərinin bir hissəsinin ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasında və EAM-ın Elektron mikroskopiya şöbəsində yerinə yetirilməsi də planlaşdırılıb.

Alimlərimiz Qərbi Qazaxıstan Tibb Universitetinin əməkdaşları ilə birgə elmi- tədqiqatların yerinə yetirilməsi, nəticələrin nüfuzlu jurnallarda nəşr olunması, beynəlxalq layihələrin hazırlanması və onların icra olunması istiqamətində işlərin təşkilinə dair fikir mübadiləsi aparıblar.

# Plastik cərrahlarımız Özbəkistanda olub



**Aprelin 16-17-də Özbəkistanın Buxara şəhərində ilk dəfə olaraq Türk Dünyası Plastik, Rekonstruktiv, Estetik Cərrahiyyə Platformasının birinci beynəlxalq elmi konfransı keçirilib.**

Konfransda bu platformanın bilavasitə qurucularından biri olan ATU-nun professoru, Azərbaycan Plastik Cərrahlar Cəmiyyətinin sədri, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, tanınmış plastik-rekonstruktiv cərrah, tibb elmləri doktoru Vaqif Qələndər, eləcə də ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti Nigar Sultanova və Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsinin müdiri Adil Cümşüdov iştirak ediblər. Belə bir mötəbər tədbirdə ölkəmizi təmsil edən alimlərimiz elmi məruzələrlə çıxış edərək öz nəzəri və praktik biliklərini müxtəlif ölkələrdən olan mütəxəssislərlə bölüşüblər.

Konfrans çərçivəsində professor V.Qələndər Özbəkistan Plastik, Rekonstruktiv və Estetik Cərrahiyyə Cəmiyyətinin fəxri üzvü seçilib. Qeyd edib ki, bu cür elmi tədbirlər ölkələrimizin mütəxəssisləri arasında dostluq əlaqələrinin qurulması və qabaqcıl təcrübənin bölüşdürülməsi baxımından əsas vasitələrdən biridir.

# "Web of Science" platforması haqqında seminar keçirilib

***Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşkilatçılığı ilə 17 aprel tarixində "Clarivate" şirkəti tərəfindən seminar keçirilib.***



Tədbirdə şirkətin müştəri müvəffəqiyyəti üzrə məsləhətçisi İltifat İbrahimov "Web of Science" platforması və onun resursları haqqında geniş məruzə edib. İ.İbrahimov seminar iştirakçılarına Web of Science Core Collection, Journal Citation Reports, EndNote referans idarəetmə sistemi kimi məhsulların üstünlükləri, tədqiqatçıların həmin resurslardan istifadə imkanları haqqında ətraflı məlumat verib. Tədbirin davamında suallar cavablandırılıb.

Seminarın sonunda Elmi Departamentin rəhbəri, professor Eldar Qarayev və dosent Sevinc Pənahova İltifat İbrahimova Təşəkkürnamə təqdim ediblər.

# Əməkdaşımız "Startap sprint" təlimində mentorluq edib



**Elmi Tədqiqatların İdarə Olunması Departamentinin startap koordinatoru, dosent Ayət Cəfərova İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə Qlobal sahibkarlıq akademiyası (Students Academy for Global Entrepreneurship - SAGE HQ) tərəfindən Türkiyənin "Anabilim okulları" tədris müəssisəsində təşkil olunan "Startap sprint" təlimində mentor qismində iştirak edib.**

A.Cəfərova startap komandalarına mentorluq edərək onlara təqdimat bacarıqlarının gücləndirilməsi, universitet mühitində sahibkarlığın təşviqi istiqamətində dəstək göstərib.

Təlim çərçivəsində ATU-nun əməkdaşı Türkiyə innovasiya ekosistemində fəaliyyət göstərən yeni startaplarla tanışlıq imkanı da qazanıb. Təlim ATU-nun innovasiya və sahibkarlıq sahəsindəki fəaliyyətlərinin inkişafı, innovativ mühitin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

# Azərbaycanlı alim Niderlandda beynəlxalq elmi sammitə qatılıb

## APA sədri Təranə Tağı-zadənin innovativ həll təklifi iştirakçıların marağına səbəb olub

**Müxtəlif ölkələrdən tanınmış pediatrlar, uşaq diyetoloqları, ictimai səhiyyə, ərzaq təhlükəsizliyi və qidalanma üzrə mütəxəssislər, eləcə də UNICEF, ÜST və digər beynəlxalq təşkilatların nümayəndələri bu günlərdə Niderlandın paytaxtı Amsterdamda keçirilən "Dünyada körpələrin qidalanma problemləri" mövzusuna həsr olunmuş beynəlxalq sammitdə bir araya gəliblər.**



Tədbirin əsas məqsədi qlobal miqyasda körpələrin sağlam və balanslı qidalanmasına mane olan amillərin araşdırılması, körpə yaşlarda ana südünün əhəmiyyətinin vurğulanması, körpələrin bağırsaq sağlamlığı və mikrobiotası ilə bağlı problemlərin dəyərləndirilməsi, eləcə də bu istiqamətdə birgə həll yollarının müəyyənləşdirilməsi olub.

Sammitdə ölkəmizi Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə təmsil edib. Təranə xanım bir çox müzakirələrdə fəal iştirak edərək Azərbaycanın bu sahədəki təcrübəsini bölüşüb, həmçinin regional və beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayıb. O, erkən yaş dövründə düzgün qidalanmanın körpələrin inkişafına təsiri, sosial və iqtisadi amillərin uşaqların qida rejiminə olan təsiri, həmçinin körpələrdə balanslaşdırılmış qidalanmanın təşkili ilə bağlı müxtəlif müasir yanaşmalar haqqında geniş müzakirələrdə fikir bildirib. T.Tağı-zadə Azərbaycanda ana və uşaq sağlamlığı mövzusunda apardığı maarifləndirici tədbirlər, ilkin səhiyyə müəssisələrində həyata keçirilən monitorinq proqramları və valideynlərə yönəlmiş təlim layihələri barədə də iştirakçıları məlumatlandırıb. O, Azərbaycanın müxtəlif bölgələrində uşaqların qidalanma vəziyyəti ilə bağlı apardıqları araşdırmalardan əldə olunan nəticələri paylaşaraq, erkən müdaxilələrin və təlimatlı pediatrik nəzarətin əhəmiyyətindən bəhs edib.

Sammitdə körpələrin qidalanması sahəsində son elmi yeniliklər və innovativ yanaşmalar ətrafında geniş müzakirələr aparılıb. Tədbir iştirakçılarına bir sıra aktual mövzularla bağlı tapşırıqlar təqdim olunub, onların üzərində birgə işlənilməsi təşviq edilib. Müzakirə edilən mövzular arasında ana südünün keyfiyyəti və üstünlükləri, uşaqlarda bağırsaq xəstəliklərinin yayılma səbəbləri, bağırsaq mikrobiotasının rolu və ana südünün tərkibindəki əsas faydalı komponentlərin funksional əhəmiyyəti xüsusilə diqqət çəkib. Panel müzakirələrində müxtəlif ölkələrdən olan pediatrlar, diyetoloqlar və tədqiqatçılar bu sahədəki elmi yeniliklər, statistik məlumatlar və klinik müşahidələr əsasında tövsiyələrini bölüşüblər. Xüsusilə Çinin Çzyannan Qida Elmləri Universitetinin professoru Pen Çjou, Vageninqen Universitetinin professoru Kasper Hettinq və Amsterdam Universitetinin professoru Mark Benninq beynəlxalq sammitdə körpə qidalanması üzrə ən son elmi yenilikləri təqdim ediblər.

T.Tağızadə bir qrup xarici həmkarı ilə birlikdə ana südünün tərkibindəki vacib faydalı komponentləri birləşdirən xüsusi cihazın hazırlanması ideyasını təqdim edərək, innovativ təkliflə çıxış edib. Təklif olunan bu cihaz müxtəlif səbəblərdən ana südü ilə qidalanmayan körpələr üçün alternativ qidaların hazırlanmasını və ana südünün bioaktiv tərkibinə çox yaxınlaşdırılmış qida formullarının istehsalını mümkün etmək üçün nəzərdə tutulur. Bu ideya tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb və gələcəkdə birgə tədqiqat imkanları müzakirə olunub.

Ən maraqlı bölümlərdən biri isə körpələrdə mədə-bağırsaq sistemində inək və keçi südünün həzmi prosesini əks etdirən laborator təcrübələrin nümayişi olub. Bu eksperimental hissədə mütəxəssislər müxtəlif süd tərkiblərinin bağırsaq fermentasiyasına təsirini əyani şəkildə nümayiş etdirərək, onların orqanizm tərəfindən hansı səviyyədə mənimsənildiyini diqqətə çatdırıblar. Eyni zamanda, mütəxəssislər uşaq qida sənayesindəki əsas problemləri, qida əlavələrinin keyfiyyəti, marketinq strategiyalarının etik çərçivələri və qida təhlükəsizliyi məsələlərini də ətraflı müzakirə ediblər.

Beynəlxalq sammitin iştirakçıları Amsterdamdakı Micropia muzeyinə də baş çəkiblər. Mikrobiologiya sahəsində beynəlxalq platforma olan muzeyin əsas ideyası mikroblar haqqında məlumatların yayılması və tədqiqatçıları bu sahədə araşdırmalara təşviq etməkdir.

**Bu günlərdə ATU-nun Travmatologiya və ortopediya kafedrasının professoru Məcid Məsimov 70 illik yubileyini qeyd edib. Alimin bu illər ərzində keçdiyi mənalı həyat yoluna və zəngin elmi yaradıcılığına qısa nəzər salaq.**

# Ömrünü Azərbaycan hərbi təbabətinin inkişafına həsr edən alim



O, 1955-ci il aprelin 18-də Qərbi Azərbaycanın Göyçə mahalının Çəmbərək rayonunun Şorca kəndində müəllim ailəsində anadan olub. 1972-ci ildə rayon orta məktəbinin rus bölməsini bitirdikdən sonra S.M.Kirov adına Qorki Dövlət Tibb İnstitutuna (RF) qəbul olunub. 1978-ci ildə bu institutu "Uşaq cərrahlığı" ixtisası üzrə bitirən M.Məsimov 1978-88-ci illərdə Qorki Elmi-Tədqiqat Travmatologiya- Ortopediya və Bərpaetmə Cərrahiyyə İnstitutunda kiçik və baş elmi işçi vəzifələrində çalışıb. Moskvada SSRİ Səhiyyə Nazirliyinin Mərkəzi Elmi-Tədqiqat Travmatologiya-Ortopediya İnstitutunda namizədlik dissertasiyasını uğurla müdafiə edib.

1988-ci ildə Qarabağ hadisələri ilə bağlı vətənə qayıdan M.Məsimov 1992-ci ilədək Bakı Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda həkim, baş elmi işçi və Azərbaycan Tibb İnstitutunun Travmatologiya-ortopediya və Hərbi səhra cərrahiyyəsi kafedrasının assistenti vəzifələrində çalışıb.

1992-ci ildə Silahlı Qüvvələrin sıralarına könüllü daxil olan Məcid müəllim Azərbaycanın ilk hərbi travmatoloqu olaraq 2000-ci ilə qədər Mərkəzi Hərbi Klinik Hospitalın Travmatologiya bölməsinin rəisi - Silahlı Qüvvələrin Baş travmatoloqu vəzifələrində çalışıb. 2000-ci ildə tibb xidməti polkovniki hərbi rütbəsini alıb. Həmin ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə ATU-da açılan Hərbi tibb fakültəsinin Cərrahiyyə kafedrasının ilk rəisi təyin edilib. 2005-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə Rusiyada dissertasiyasını uğurla müdafiə edərək elmlər doktoru olub və dosent elmi adını alıb.

Onun hərb cərrahiyyəsinə aid yaratdığı yeni ortopedik-cərrahi reabilitasiya sistemi və texnologiyası dayaq-hərəkət aparatının ağır və həddən ziyadə ağır travmaları zamanı ölüm faizini 9-10 dəfə azaltmağa imkan verib. Eyni zamanda ən ağır dərəcəli travmalarda da ətrafları amputasiyadan qoruyaraq pasiyentləri əlillikdən xilas edir.

M.Məsimov 2006-10-cu illərdə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının tibb hissəsinin rəisi, 2010-12-ci illərdə isə MN-in Hərbi Tibb İdarəsinin rəisi, Silahlı Qüvvələrin Tibb xidməti rəisi vəzifələrində çalışıb. Prezidentin sərəncamı ilə "Əməkdar həkim" və müdafiə nazirinin əmirləri ilə orduda qüsursuz xidmətə görə çoxsaylı medallarla təltif olunub.

2012-ci ildə yenidən elmi-pedaqoji fəaliyyətə qayıdan M.Məsimov ATU-nun Hərbi tibb fakültəsi rəisinin tədris və elmi işlər üzrə müavini, tədris hissə rəisi vəzifələrində çalışıb. 2013-cü ildə yaşa görə AR Silahlı Qüvvələrindən tərxis olunub. 2020-ci ilədək Cərrahiyyə kafedrasında çalışıb. 2020-ci ildə Fakültə Elmi Şurasının qərarı ilə Travmatologiya və ortopediya kafedrasına professor vəzifəsinə təyin edilib və hazırda həmin vəzifədə çalışır.

Professor M.Məsimov 150-dən çox əsərin, o cümlədən 2 monoqrafiya, 1 tədris-metodik vəsait və dərslik, 10 ixtira, 30-dan çox səmərələşdirici təklifin müəllifidir. Dörd nəfər t.ü.f. doktorunun elmi rəhbəri və məsləhətçisi olub. Hazırda fakültə Elmi Şurası, Cərrahiyyə üzrə Problem Komissiyası, AAK Ekspert Şurası və iki elmi jurnalın redaksiya heyətinin üzvüdür.

Ömrünü Azərbaycan hərbi təbabətinin inkişafına həsr edən professor Məcid Məsimovu 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı diləyirik!

**Travmatologiya və ortopediya kafedrasının kollektivi**

# Əməkdaşımız beynəlxalq tədbirə qatılıb

**ATU-nun dosenti, Azərbaycan Kardiologiya Cəmiyyətinin Preventiv Kardiologiya və Reabilitasiya işçi qrupunun rəhbəri, Milli İdman Tibbi və Reabilitasiya Elmi-Praktik İnstitutunun baş həkimi Rəhimə Qabulova bu günlərdə Milanda keçirilən "ESC Preventive Cardiology 2025" beynəlxalq konqresində iştirak edib.**



Konqres çərçivəsində "Global risk realities in 2025" adlı sessiyaya sədrlik edən əməkdaşımızın "Hypertension management in daily practice" adlı digər sessiyada "Hipertoniya xəstəliyində dərman müalicəsinə sadiqliyin artırılması yolları" barədə məruzəsi dinlənilib. Bu sessiya interaktiv formatda keçirilib və iştirakçılar ilə aktiv elmi fikir mübadiləsi aparılıb. Bununla yanaşı, dosent R.Qabulova Avropa Kardiologiya Cəmiyyətinin European Journal of Preventive Cardiology (EJPC) jurnalının redaksiya heyətinin toplantısına da qatılıb. Qeyd edək ki, o, 2024-cü ildən etibarən həmin jurnalın assosiativ redaktoru kimi fəaliyyət göstərir.

R.Qabulova həmin müddətdə müxtəlif ürək-damar risk qruplarına aid ölkələrin milli koordinatorlarının dəvət olunduğu, professor Massimo Piepoli və Maryam Kavousi tərəfindən idarə olunan National CVD Prevention Coordinators Workshop adlı seminarda da iştirak edib. Çox yüksək ÜD riski olan ölkələr kateqoriyasında Azərbaycan, Gürcüstan, Latviya, Litva və Rumıniya təmsil olunub. Seminar zamanı bu ölkələrin nümayəndələri ilə xroniki ürək çatışmazlığı zamanı kardioloji reabilitasiya xidmətlərinin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

Əməkdaşımızın təcrübə mübadiləsi çərçivəsində İtaliyanın tanınmış lipidoloqu, professor Alberico Catapano ilə görüşü zamanı Azərbaycanda lipidologiya sahəsinin inkişaf etdirilməsi və bu istiqamətdə Azərbaycan Kardiologiya Cəmiyyəti ilə beynəlxalq əməkdaşlıq imkanları müzakirə olunub.

# Universitetimizin əməkdaşı beynəlxalq konqresdə sədrlik edib

**Aprelin 10-13-də Türkiyənin Bursa şəhərində 21-ci Beynəlxalq Uludağ Qış Pediatriya Konqresi keçirilib.**



Pediatriyanın aktual problemlərinə həsr olunan konqresdə uşaqlar arasında son illər geniş yayılmış infeksion, eləcə də endokrin, revmatoloji, qastroenteroloji xəstəliklər, xronik öskürəklərin səbəbləri, sidik-ifrazat sistemi xəstəlikləri, viziнq sindrom, obstruktiv yuxu apnoesi, ətraf mühitin, ekologiyanın, tütünün uşaq yaşı xəstəliklərinə təsiri barədə ətraflı müzakirələr aparılıb. Eyni zamanda bronxial astma, allergik rinit, atopik dermatit, angioödem, qida və dərman allergiyası və s. allergik xəstəliklərin uşaqlarda gedişi, diaqnostikası və müalicəsində son yeniliklər, uşaqlarda immun sistemi çatışmazlıqları, tənəffüs yollarının anadangəlmə anomaliyaları, kistik fibroz, təcili və təxirəsalınmaz yardım tələb edən patologiyalar və s. aktual mövzularda bir-birindən maraqlı məruzələr dinlənilib.

Geniş diskussiya şəraitində keçən konqresdə ölkəmizi universitetimizin II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova təmsil edib və "Bronxial astma" bölümünə sədrlik ona həvalə olunub.

Səhiyyə tariximizdən

# Mirəsədulla Mirqasımov - ilk azərbaycanlı alim-cərrah

**Hər millətin tarixində elə şəxsiyyətlər var ki, onların fəaliyyəti və irsi milli inkişafın mühüm mərhələlərində xüsusi yerə malik olur. Bu cür şəxsiyyətlər adətən bir sahədə deyil, bütövlükdə xalqın maariflənməsində, elmi tərəqqisi və ictimai həyatında mühüm rol oynayırlar. Onlardan biri də Azərbaycan tibb elminin formalaşmasında və bu sahədə milli məktəbin qurulmasında böyük xidmətləri olmuş görkəmli alim və ictimai xadim Mirəsədulla Mirələsgər oğlu Mirqasımovdur.**



M.Mirqasımov 17 noyabr 1883-cü ildə Bakıda, Ruhani Seminariyasının müəllimi ailəsində anadan olub. 1908-ci ildə gimnaziyanı bitirib. O hələ gimnaziyanın yuxarı siniflərində oxuyarkən ictimai fəaliyyət göstərir, qəzet və jurnallara məqalələr yazırdı. Bu məqalələr, əsasən Şərq ölkələrində müsəlman qadınların acınacaqlı vəziyyətindən bəhs edirdi. M.Mirqasımov 1913-cü ildə Odessa şəhərində yerləşən Novorossiya İmperator Universitetinin Tibb fakültəsini bitirib. 1916-cı ilədək Odessada həkim, 1916-1929-cu illərdə Bakıda hərbi lazaretdə, indiki 1 saylı doğum evində cərrah, Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsində dosent işləmişdir. Tibb sahəsində elmi fəaliyyət göstərmiş peşəkar həkimlərin hazırlanmasına böyük əmək sərf etmiş Mirqasımov, həmçinin gənc kadrların yetişdirilməsinə xüsusi önəm vermişdir.

1926-cı ildə Avropa şəhərlərinə - Berlin və Münhenə uzunmüddətli elmi ezamiyyətə göndərilib. İstedadlı alim müvəffəqiyyətlə müdafiə etdiyi doktorluq dissertasiyası əsasında 1928-ci ildə monoqrafiya çap etdirib. Həmin elmi iş bu günə qədər də öz praktiki əhəmiyyətini və aktuallığını itirməyib. M.Mirqasımov bununla ölkəmizdə ilk azərbaycanlı alim-cərrah adını qazanır, tibbi cərrahlığın elmi əsasını qoyur. 1929-cu ildə M.Mirqasımov professor adını alır. O həm də Azərbaycan Milli Elmlər Akademiyasının və Tibb İnstitutunun təşkilində iştirak edən ilk şəxslərdəndir, AMEA-nın ilk prezidenti olub (1945-47). 1931-ci ildə Azərbaycan Tibb İnstitutunun Hospital cərrahiyyəsi kafedrasının müdiri seçilib. Ömrünün sonuna qədər bu vəzifədə çalışıb.

Akademik M.Mirqasımov 90-a qədər çap olunmuş elmi işin, monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifi, 6 doktorluq, 20 namizədlik dissertasiyası üçün elmi işin məsləhətçisi və elmi rəhbəri olub. Fəaliyyəti dövründə çox sayda konfrans və qurultaylarda, simpoziumlarda elmi məruzələrlə çıxış edib, xarici mətbuatda dünya səhiyyəsində maraq doğuran məqalələri çap olunub. Azərbaycanda tibbi cərrahiyyə elmi məktəbinin təşkilatçısıdır. Alimin elmi fəaliyyəti, əsasən sidik daşı xəstəliklərinin etiologiyası, klinikası və müalicəsinin öyrənilməsinə, irinli peritonitlər, anesteziologiya, travmatologiya, urologiya və cərrahlığın aktual məsələlərinə həsr olunmuşdu.

Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin müəllifi olan M.Mirqasımov, Ümumdünya Cərrahlar Assosiasiyasının, Ümumittifaq Cərrahlar Cəmiyyətinin, Ümumittifaq Uroloqlar Cəmiyyəti idarə heyətinin fəxri üzvü, Azərbaycan Cərrahlar Cəmiyyətinin sədri olub. O, 1936-cı ildə Əməkdar elm xadimi adına layiq görülüb, 1937, 1946, 1950-ci illərdə 1, 2, 3-cü çağırış SSRİ Ali Sovetinə deputat seçilib. İki dəfə Qırmızı əmək bayrağı ordeni, Qırmızı ulduz və çoxlu sayda digər orden və medallarla təltif olunub. 20 iyul 1958-ci ildə 74 yaşında vəfat edib.

Qeyd edək ki, akademik Mirəsədulla Mirqasımovun fəaliyyəti daim yüksək qiymətləndirilib, Azərbaycan müstəqillik əldə etdikdən sonra isə adı əbədiləşdirilib. O cümlədən Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 130 və 140 illik yubileyləri təntənəli şəkildə keçirilib. AMEA-nın Rəyasət Heyətinin binasında baş tutan 140 illik yubiley tədbirində Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də geniş çıxış edib.

Hazırda Azərbaycan Təbabəti Muzeyində M.Mirqasımovun həyat və fəaliyyətini əks etdirən eksponatlar nümayiş olunur.

**Hazırladı: İlahə Qayıbova, Əsaslı kitabxananın əməkdaşı**

# Gənclər tütün və veyplərin zərərləri barədə məlumatlandırılıb

**Aprelin 16-da Azərbaycan Tibb Universitetində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Səhiyyə Nazirliyi tərəfindən birgə maarifləndirici tədbir keçirilib.**

Tədbirdə "Tütün və veyplərin zərərləri" mövzusunda çıxış edən AQTA-nın əməkdaşı Günay Quluzadə, Səhiyyə Nazirliyinin əməkdaşları Nərmin Azadova və Şəhla Kazımova tələbələrə elektron siqaretlərin (veyplərin) sağlamlığa təsirləri, tərkibindəki zərərli maddələr və asılılıq yaratma potensialı barədə ətraflı məlumat veriblər. Tütünün sosial və ekoloji təsirlərindən bəhs edən mütəxəssislər veyplərin parlaq rəngləri və şirin dadlarının gənclər arasında cəlbedici olduğunu, lakin bu məhsulların ciddi sağlamlıq riskləri daşıdığını vurğulayıblar.



Onlar söyləyiblər ki, tütün dünya əhalisinin qarşısı alına bilinən əsas ölüm səbəblərindəndir. Çıxışlarda bildirilib ki, dünyada heç də insanların hamısı siqaret çəkmir. Çəkənlərin isə çoxu bu vərdişdən imtina etmək arzusundadır və onlar siqaret çəkməni əsasən öz istəkləri ilə yox, tütün məmulatlarında mövcud olan nikotindən yaranmış asılılıq səbəbindən edirlər. Onlar çıxışlarında əlavə ediblər ki, hər bir insanın təmiz, tərkibində zəhərli maddələr olmayan hava ilə nəfəs almaq hüququ tütün çəkənlərin ictimai yerlərdə siqaret çəkmək və bununla da digər insanların sağlamlığını təhlükədə qoymaq hüququndan qat-qat üstündür.

Mütəxəssislər diqqətə çatdırıblar ki, ikincili (ətrafa yayılan) tütün tüstüsünün qəbul edilməsi sağlamlıq üçün təhlükəlidir. Çünki bu, yaşlı insanlarda xərçəng, ürək qan-damar və digər ciddi xəstəliklərin inkişaf etməsinə gətirib çıxarır. Dünyadakı uşaqların dəmək olar ki, yarısı tütün tüstüsü ilə çirklənmiş hava ilə nəfəs alır. Bu isə, astma xəstəliyi zamanı vəziyyəti ağırlaşdırır və təhlükəli xəstəliklərin yaranmasına səbəb olur. Hər il ən azı 200 000 insan işlədikləri müəssisələrdə ikincili tütün tüstüsünü qəbul etmək səbəbindən ölür. Onlar qeyd ediblər ki, tütün tüstüsünün törətdiyi ölümcül təhlükələrdən yeganə qorunma yolu azad mühitin yaradılmasıdır.

Diskussiya formasında keçirilən tədbirdə mütəxəssislərlə iştirakçılar arasında fikir mübadiləsi də aparılıb və onlara sağlam həyat tərzinin əhəmiyyəti barədə bir sıra tövsiyələr verilib. Bildirilib ki, təhsil müəssisələrində bu cür maarifləndirmə tədbirləri gənclərin sağlamlığına yönəlmiş önəmli addımdır.

Sonda tələbələrin çoxsaylı suallar mütəxəssislər tərəfindən cavablandırılıb.

# ATU-nun dosenti beynəlxalq kursu müvəffəqiyyətlə başa vurub

**İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri, dosent Aygün Babayeva "European Climate Resilient Health Systems" kursunu uğurla başa vurub. Kolumbiya Universitetinin (ABŞ) İqlim və Sağlamlıq Təhsili üzrə Qlobal Konsorsiumu və Avropa İctimai Səhiyyə Məktəbləri Assosiasiyası tərəfindən birgə təşkil olunan kursun məqsədi iqlim dəyişikliyi şəraitində səhiyyə sistemlərinin dayanıqlığını artırmaq üçün zəruri bilikləri paylaşmaqdan ibarətdir.**



Proqram çərçivəsində iqlim dəyişikliyi şəraitində səhiyyə sistemləri, zəif tərəflərin və adaptasiya mexanizminin qiymətləndirilməsi, fövqəladə halların qarşısının alınması və cavab tədbirləri, dayanıqlı inkişafın iqtisadi və tibbi faydaları kimi mövzular tədris olunub. Həmçinin karbon izinin azaldılması üzrə strategiyalar, səhiyyə sistemində dayanıqlı texnologiyaların qiymətləndirilməsi, sistem dayanıqlılığının monitorinqi və qiymətləndirilməsi; idarəetmə, ədalət prinsipləri və iqlim fəaliyyəti; iqlim dəyişikliyi şəraitində tibbi kommunikasiya və s məsələlər müzakirə edilib.

Dosent A.Babayeva 10 həftəlik kursun sonunda keçirilən imtahanda yüksək nəticə qazanaraq sertifikatla təltif olunub.

# Gələcəyin diş həkimləri yarışıb

**Azərbaycan Tibb Universitetinin 95 illik yubileyi çərçivəsində Stomatologiya fakültəsinin 2-ci kurs tələbələri üçün yaradıcı-maarifləndirici müsabiqə təşkil olunub. Tədris Stomatoloji Klinikanın Tədris mərkəzində bir saat ərzində keçirilən müsabiqə zamanı tələbələr bıçaq vasitəsilə sabundan diş və çənə modelləri düzəldiblər.**



Tədris işləri üzrə prorektor, professor Nazim Pənahov tədbirin tələbələrin dünyagörüşünün genişləndirilməsi və tədris prosesinə marağın artırılması məqsədinə xidmət etdiyini bildirib. Müsabiqənin gedişatını izləyən professor N.Pənahov tələbələrə uğurlar arzulayıb.

Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva çıxışında müsabiqənin qaydaları haqqında məlumat verib və iştirakçılara müvəffəqiyyətlər diləyib.

Sonda tələbələrin əl işləri münsiflər tərəfindən qiymətləndirilib. Qaliblərə sertifikatlar və "Prosthodontics. Propaedeutics" (müəlliflər: N.A.Pənahov, E.R.Əliyeva, S.İ.Əhmədov) adlı dərslik hədiyyə olunub.

# Tədris Stomatoloji Klinika səyyar xidmətlərə başlayıb

**ATU-nun Tədris Stomatoloji Klinikasının yeni səyyar xidmətinə start verilib. Klinikanın həkim kollektivi və rezident həkimləri tərəfindən həyata keçirilən bu təşəbbüs stomatoloji xidmətlərə çıxışı asanlaşdırmaq və vətəndaşların ağız-diş sağlamlığını erkən mərhələdə qorumaq məqsədi daşıyır.**

Səyyar xidmətin ilk dayanacağı "Evrika" özəl liseyi olub. Burada 900-dən çox məktəblinin müayinəsi həyata keçirilib. Xüsusi diqqət isə profilaktik və diaqnostik müayinələrə yönəldilib. Uşaqların ağız boşluğunda kariyes, diş əyrilikləri, diş ətində iltihabi proseslər və digər ortodontik-anatomik problemlər erkən mərhələdə aşkarlanaraq qeydiyyata alınıb. Bu da gələcəkdə ciddi müdaxilələrə ehtiyac olmadan vaxtında tədbir görülməsinə şərait yaradır. Qeyd edək ki, səyyar xidmət yalnız məktəblərlə məhdudlaşmır. Layihə çərçivəsində Bakı şəhəri üzrə müxtəlif əraziləri əhatə edən səfərlər də planlaşdırılıb.

# Tələbələrimiz teatr sənətinə böyük maraq göstərir

**Bu günlərdə Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi (ATU THİK) tərəfindən tələbələrə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında səhnəyə qoyulan "O olmasın, bu olsun" və "Palata" tamaşalarına hədiyyə biletlər təqdim edilib.**



Bu cür addımlar, tələbələrin dünyagörüşünün artırılması, onların teatr sənətinə marağının gücləndirilməsi və asudə vaxtlarının daha səmərəli təşkili məqsədini daşıyır. Belə təşəbbüslərin davamlı olması nəzərdə tutulub.

Qeyd edək ki, ATU-nun tələbələri hər zaman mədəni-maarifləndirici tədbirlərdə böyük həvəslə iştirak edir və universitetin ictimai həyatına öz töhfələrini verirlər.

## Allah rəhmət eləsin!

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi İlqar Tahirova qardaşı **İman Tahirovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının kollektivi kafedranın baş müəllimi **Maqsud Aslanovun** vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağciyər xəstəlikləri kafedrasının əməkdaşları II Daxili xəstəliklər kafedrasının professoru **Tamfira Əliyevanın** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0008
Sayı 800